## BAYTARLIQ PREPARATLARININ NÜMUNƏLƏRİNİN TƏQDİM EDİLMƏSİ

1. Baytarlıq preparatlarının keyfiyyətinin yoxlanılması və onların qeydiyyata (yenidən qeydiyyata) alınması məqsədilə həmin preparatların nümunələri İnstituta təqdim edilməlidir.

2. Baytarlıq preparatlarının nümunələri istehsalçı müəssisənin qablaşdırdığı qabda, qabın qapağı (tıxacı, tikişi), etiketi və özünün tamlığı pozulmamış (zədələnməmiş) şəkildə təqdim olunur.

3. İritutumlu qablarda buraxılan preparatlardan nümunə nümunəgötürmə qaydalarına uyğun orta nümunələrdən təmiz qabda (polietilen kisələrdə, butulkalarda, bankalarda və s.) 2 nümunə olmaqla təqdim edilir. Bu barədə nümunəgötürmə aktı tərtib edilir və nümunənin necə götürüldüyü (tərtib edildiyi), etiketləşdirildiyi və nişanlandığı təsvir edilir.

Etiketin orijinalı və yaxud onun surəti olmalıdır. Surətin əsli ilə düz olması möhür və imza ilə təsdiq edilməlidir. Nümunələr bəndlənib imza və möhürlə elə bağlanmalıdır ki, onu saxtalaşdırmaq mümkün olmasın.

4. Etiketdə Texniki Şərtlərdə və ya Texnoloji Reqlamentdə (Təlimatda) nişanlanma üçün tələb olunan məlumatlar verilməlidir. Bu sənədlərdə preparatın etiketində olan məlumatlar göstərilməzsə, etiketdə mütləq aşağıdakılar olmalıdır:

əmtəə nişanı (əgər varsa);

istehsalçı müəssisənin tam adı (qısaldılmadan), ünvanı, telefon nömrəsi;

preparatın adı, preparata aid Texniki Şərtlərin işarəsi, baytarlıq təyinatlı olması, onun miqdarı;

işlətmə qaydası barədə qısa məlumat;

saxlanma şəraiti, hazırlandığı vaxt, partiyası, yararlılıq müddəti.

5. Nümunələr aşağıdakı sənədlərlə müşayiət edilməlidir:

müraciət məktubu (əgər preparat qeydə alınmışsa, preparatın qeydiyyat şəhadətnaməsinin nömrəsi göstərilməklə);

nümunəgötürmə aktı;

keyfiyyət sertifikatı;

*Agentliyin* idxala icazə məktubu və ya qeydəalma barədə ərizəçinin məktubu;

malı müşayiət edən yol sənədləri (invoys və müxtəlif sertifikatlar).

6. Qeydəalma nümunələri 3 müxtəlif partiyanın hər birindən 2 nümunə, idxal edilən preparatların hər partiyasından 2 nümunə olmaqla təqdim edilir.

7. Lazımi qaydada tərtib edilməmiş və sənədlərlə təmin olunmamış nümunələr qəbul edilmir, istifadə olunmur və saxlanılmır.

8. Azərbaycan Respublikasına idxal edilən və qeydiyyat şəhadətnaməsi olan baytarlıq preparatlarının hər partiyasından nümunələr İnstituta təqdim edilməlidir.